ERNST H.QOMBRİX

# DÜNYANIN QISA TARİXİ

GƏNC OXUCULAR ÜÇÜN

Tərcüməçi:
Müqəddəs Şahbazov

qanun nəşriyyatı

ERNST H. GOMBRICH

# EINE KURZE WELTGESCHICHTE FÜR JUNGE LESER

Ernst H.Qombrixin bu klassik əsəri oxucularını qədim sivilizasiyalardan tutmuş müasir dövrə qədər tarixin ən maraqlı anlarına aparır. Sadə, axıcı və səmimi üslubu ilə Qombrix tarix kitablarını darıxdırıcı edən sxemlərdən yan keçərək, hadisələri nağıl kimi təqdim edir.

Bu kitab oxuculara təkcə keçmiş hadisələri izah etmir, eyni zamanda, düşünməyə sövq edir, tarixi dərk etməyin əhəmiyyətini, onun gələcəyə necə işıq tutduğunu göstərir. Qədim Misirdən Roma imperiyasına, Renessansdan müasir cəmiyyətə qədər hər bir mərhələ oxucuların anlayacağı sadə bir dildə qələmə alınıb.

"Dünyanın qısa tarixi" həm tarixlə yeni tanış olanlar, həm də sadə və düşündürücü üslubu qiymətləndirən böyüklər üçün də əvəzolunmaz kitabdır.

**Ernst H. Gombrich** **EINE KURZE WELTGESCHICHTE FÜR JUNGE LESER**
**Ernst H.Qombrix** **DÜNYANIN QISA TARİXİ**

Janr: tarix, elmi-populyar
Yaş qrupu: 10+
Ölçü: 145x215 mm
Cild: yumşaq
Səhifə sayı: 344

| | |
|---|---|
| Naşir: | Şahbaz Xuduoğlu |
| Tərcüməçi: | Müqəddəs Şahbazov |
| Redaktor: | Zakir Abbas |
| Korrektorlar: | Aygül Yelmarlı, Aytən Səadəti |
| Mətn dizaynı: | Ramin Əli |
| Qapaq dizaynı: | Rafael Qasım |

Qanun Nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pr., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-606-56-0

© Qanun Nəşriyyatı, 2025
© 1985 by DuMont Buchverlag, Cologne, Germany
Original German title: “Eine kurze Weltgeschichte für junge Leser”
This is the revised edition of the title “Weltgeschichte von der Urzeit bis zur Gegenwart” by Ernst H. Gombrich, first published in 1935 by Steyrermühl-Verlag, Vienna.

Bu kitabın Azərbaycan dilinə tərcümə və yayım hüquqları Qanun Nəşriyyatına məxsusdur. Kitabın təkrar və hissə-hissə nəşri “Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikasının Qanununa ziddir.

***İlzeyə ithaf olunur***

Sən buna qulaq asmısan,
indi o, həmişəlik sənindir.

oktyabr, 1935, Vyana
fevral, 1998, London

# MÜNDƏRİCAT

ÖN SÖZ ........................................................................................ 9
**I FƏSİL.** BİRİ VARDI, BİRİ YOX ............................................................ 14
**II FƏSİL.** BÜTÜN DÖVRLƏRİN ƏN BÖYÜK İXTİRAÇILARI ... 18
**III FƏSİL.** NİL ÇAYININ SAHİLİNDƏKİ ÖLKƏ ............................ 24
**IV FƏSİL.** BAZAR, BAZAR ERTƏSİ ................................................ 32
**V FƏSİL.** TƏK OLAN TANRININ QARŞISINDA............................ 40
**VI FƏSİL.** MƏN O-XU-YA Bİ-Lİ-RƏM ............................................ 46
**VII FƏSİL.** QƏHRƏMANLAR VƏ ONLARIN SİLAHLARI ......... 49
**VIII FƏSİL.** QEYRİ-BƏRABƏR MÜBARİZƏ ................................ 56
**IX FƏSİL.** KİÇİK BİR ÖLKƏDƏ İKİ KİÇİK ŞƏHƏR .................... 64
**X FƏSİL.** NURLANMIŞ VƏ ONUN ÖLKƏSİ.................................. 72
**XI FƏSİL.** BÖYÜK XALQIN BÖYÜK MÜƏLLİMİ ........................ 79
**XII FƏSİL.** ƏN BÖYÜK MACƏRA ..................................................... 86
**XIII FƏSİL.** YENİ DÖYÜŞLƏR VƏ YENİ DÖYÜŞÇÜLƏR ......... 98
**XIV FƏSİL.** TARİXİN DÜŞMƏNİ ...................................................... 107
**XV FƏSİL.** QƏRB DÜNYASININ AĞASI .......................................... 110
**XVI FƏSİL.** XOŞ MÜJDƏ ...................................................................... 120
**XVII FƏSİL.** İNSANLAR İMPERİYADA VƏ ONUN SƏRHƏDLƏRİNDƏ NECƏ YAŞAYIRDILAR................................. 126
**XVIII FƏSİL.** TUFAN ............................................................................... 134

**XIX FƏSİL.** ULDUZLU GECƏLƏR BAŞLAYIR ............................ 141
**XX FƏSİL.** ALLAHDAN BAŞQA TANRI YOXDUR VƏ MƏHƏMMƏD ONUN PEYĞƏMBƏRİDİR ...................................... 147
**XXI FƏSİL.** HƏM DƏ İDARƏ ETMƏYİ BACARAN FATEH ....... 156
**XXII FƏSİL.** XRİSTİAN DÜNYASI ÜZƏRİNDƏ HÖKMRANLIQ UĞRUNDA MÜBARİZƏ ................................................................ 164
**XXIII FƏSİL.** FƏDAKAR CƏNGAVƏRLƏR.................................. 172
**XXIV FƏSİL.** CƏNGAVƏRLƏR DÖVRÜNDƏ İMPERATOR ...... 180
**XXV FƏSİL.** ŞƏHƏRLƏR VƏ ONLARIN SAKİNLƏRİ ................ 194
**XXVI FƏSİL.** YENİ DÖVR ............................................................ 202
**XXVII FƏSİL.** YENİ DÜNYA ........................................................ 212
**XXVIII FƏSİL.** YENİ MƏZHƏB ................................................... 221
**XXIX FƏSİL.** DÖYÜŞƏN KİLSƏ .................................................. 229
**XXX FƏSİL.** DƏHŞƏTLİ ZƏMANƏ .............................................. 236
**XXXI FƏSİL.** BƏDBƏXT KRAL VƏ XOŞBƏXT KRAL ............... 244
**XXXII FƏSİL.** HƏMİN VAXT ŞƏRQİ AVROPADA ....................... 251
**XXXIII FƏSİL.** ƏSL YENİ DÖVR .................................................. 259
**XXXIV FƏSİL.** MÜDHİŞ İNQİLAB ................................................ 267
**XXXV FƏSİL.** SONUNCU İSTİLAÇI.............................................. 276
**XXXVI FƏSİL.** İNSAN VƏ MAŞINLAR ......................................... 291
**XXXVII FƏSİL.** DÜNYANIN O BİRİ TƏRƏFİNDƏ ...................... 300
**XXXVIII FƏSİL.** İKİ YENİ AVROPA DÖVLƏTİ ........................... 308
**XXXIX FƏSİL.** DÜNYANIN BÖLÜŞDÜRÜLMƏSİ ...................... 318
**XL FƏSİL.** DÜNYA TARİXİNDƏ MƏNİM YAŞADIĞIM HADİSƏLƏR. KEÇMİŞƏ BAXIŞ ...................................................... 328
ERNST H.QOMBRİXİN HƏYAT YOLU VƏ NƏŞRLƏRİ ............... 342

# ÖN SÖZ



Babam Ernst Qombrix, adətən, uşaqlar üçün əsər yazmırdı. Üstəlik, o, geniş mənada tarixlə deyil, incəsənətin tarixi ilə məşğul olurdu. Məhz buna görə də ilk kitabı olan "Dünyanın qısa tarixi"nin ildən-ilə dünyada yeni dostlar qazanması onu həm sevindirir, həm də təəccübləndirirdi.

O bu kitabı hələ çox gənc ikən, olduqca qısa müddətdə yazmışdı. Sonralar o belə davamlı uğura iki amilin səbəb olduğunu söyləyirdi. Bununla belə, əgər 1935-ci ildə Vyanada baş verən bir çox fərqli təsadüflər üst-üstə düşməsəydi, bəlkə də, bu kiçik kitab heç vaxt yazılmazdı.

Kitab belə yaranmışdı...

Babam Vyana Universitetində namizədlik dissertasiyasını müdafiə edəndə işsiz idi və belə çətin dövrdə iş tapmaq müşkül məsələydi. Gənc naşir olan dostu ondan uşaqlar üçün ingiliscə yazılmış tarix kitabına baxmağı və bəlkə də, onu alman dilinə tərcümə etmək istəyini soruşdu. Bu kitabı naşirə onların Londonda tibb təhsili almış ortaq dostları tövsiyə etmişdi və kitab "Uşaqlar üçün elm" seriyası çərçivəsində nəşr edilməli idi.

Kitab babamda xüsusi təəssürat yaratmadığından sonralar "Thames&Hudson" ingilis nəşriyyatının yaradıcısı olacaq Valter Neyrata onu tərcümə etmək istəmədiyini bildirir. O Neyrata deyir: "Düşünürəm ki, mən bundan da yaxşı kitab yaza bilərəm". Belə olduqda naşir nümunə üçün gələcək kitabdan bir fəsil yazıb, ona göndərməsini xahiş edir.

Babam doktorluq dissertasiyası üzərində işləyəndə elmi işinin mövzusunu qızına anlaşılan sözlərlə izah etməyi çox xoşlayırdı. Bundan əlavə, sonralar xatırladığı kimi, universitetdə oxuduğu müddətdə fasiləsiz olaraq məşğul olduğu elmi araşdırmalardan da bir az yorulmuşdu. O, qəti şəkildə əmin idi ki, ağıllı uşağa çox şeyləri sadə dillə, mürəkkəb xüsusi terminlərdən istifadə etmədən izah etmək mümkündür. Buna görə də o, cəngavərlik dövrü haqqında maraqlı bir fəsil yazdı və onu Neyrata göndərdi. Neyrat heyran qaldı, amma bildirdi: "Kitabın planlaşdırılan vaxtda çıxması üçün altı həftədən sonra bütün əlyazmanı tam almalıyam".

Babam kitabı bu qədər tez yaza biləcəyinə qətiyyən əmin deyildi, lakin Neyratın tələbi onu ruhlandırdığından cəhd edəcəyinə söz verdi. O, dünya tarixində baş verən hansı hadisələrin təsvir edilməli olduğuna qərar verərək, tez bir zamanda kitabın planını tərtib etdi. Babam, sadəcə olaraq keçmişdə baş verən hansı hadisələrin cəmiyyətin həyatına təsir etdiyini və bu gün adamların nəyi daha yaxşı xatırladıqlarını özü-özündən soruşdu. Bundan